# 2023-2027

# STRATEJİ İNKİŞAF PLANI





Naxçıvan Dövlət Universitetinin Strateji İnkişaf Planı universitetin Elmi şurasının 06 sentyabr 2023-cü il tarixli 01 saylı protokolu ilə təsdiq edilmişdir.

(+99436) 544-08-61
r.jafarli@ndu.edu.az
www.ndu.edu.az

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

1967

NAKHCHIVAN STATE UNIVERSITY

## GİRİŞ

Cari strateji planın yenilənməsi, universitetin akademik və administrativ heyəti, eləcə də tələbələrin iştirakı və əməkdaşlığı ilə strateji planlaşdırma metodologiyası əsasında həyata keçirilmişdir.

Bu strategiyanın hazırlanması üçün universitetdə komissiya yaradılmış və komissiyanın tərkibində işçi qrup müəyyən edilmişdir. Qrup birinci mərhələdə hazırlıq işlərini həyata keçirmişdir. Universitet tərəfindən həyata keçirilmiş fəaliyyətlərin nəticələri, ölkənin elm və təhsil strategiyası, dünyada təhsil sahəsində baş verən yeniliklər analiz edilmiş, sənədlər, təkliflər, habelə beynəlxalq təcrübə işçi qrup tərəfindən tədqiq edilmişdir.

Universitetdəki vəziyyəti təhlil etmək, əlavə inkişaf üçün ehtiyacları müəyyənləşdirmək və nəticələr çıxarmaq məqsədi ilə işçi qrupu universitetin bütün maraqlı tərəfləri ilə görüşlər keçirmişdir. Maraqlı tərəflərin planları və gözləntiləri təhlil edilmiş və strategiyada öz yerini almışdır.

## UNİVERSİTET HAQQINDA

Azərbaycan Respublikasınınqabaqcıl ali məktəblərindən biri kimi səciyyələndirilən, muxtar respublikanın əsas elm, təhsil, ictimai fikir və mədəniyyət mərkəzlərindən olan Naxçıvan Dövlət Universiteti ölkəmizin ali məktəbləri sistemində yüksək nüfuzu, hərtərəfli inkişafı, yüksək ixtisaslı kadrların hazırlanması sahəsindəki fəaliyyəti ilə diqqəti cəlb edir.

Naxçıvanda ilk ali təhsil ocağı 1967-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı kimi fəaliyyətə başlamışdır. İlk tədris ilini 3 ixtisas üzrə 102 nəfər tələbə qəbulu ilə başlayan ali təhsil müəssisəsində birinci il cəmi 3 nəfər ştatda olan müəllim çalışırdı. Regionun yüksək ixtisaslı mütəxəssislərə olan tələbatını ödəmək zərurəti ali təhsil ocağının filial kimi deyil, müstəqil ali məktəb kimi fəaliyyətini şərtləndirdi. Bunun nəticəsində 1972-ci ildə filialın bazası əsasında Naxçıvan Dövlət Pedaqoji İnstitutu yaradılmışdır. İlk mərhələdə pedaqoji kadrlara olan tələbat zaman keçdikcə sosial-iqtisadi və mədəni həyatın digər sahələrini də əhatə etdi, ali məktəb yeni ixtisasların açılmasını, fəaliyyətini daha geniş müstəvidə həyata keçirməyi qarşısına məqsəd qoydu. Bu səbəbdən Azərbaycan SSR Nazirlər Kabinetinin 29 dekabr 1990-cı il tarixli 584 saylı Qərarı ilə Pedaqoji İnstitut Naxçıvan Dövlət Universitetinə çevrilmişdir.

Müxtəlif illərdə Naxçıvan Dövlət Universitetinə tarix elmləri namizədi, dosent Əli Əliyev (1967-1970), coğrafiya elmləri namizədi, dosent Səfərəli Babayev (1970-1972), texnika elmləri doktoru, professor İsrafil Məmmədov (1972-1977), tarix elmləri doktoru, professor İsak Məmmədov (1978-1984), AMEA-nın müxbir üzvü İsgəndər Cəfərov (1985-1989), kimya elmləri doktoru, professor Qasım Hüseynov (1989-1996), AMEA-nın həqiqi üzvü İsa Həbibbəyli (1996-2013), biologiya elmləri doktoru, professor Saleh Məhərrəmov (2013-2019) rəhbərlik etmişlər. Hazırda tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev Naxçıvan Dövlət Universitetinin rektorudur.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 12 iyun 2002-ci il tarixli Sərəncamı ilə Naxçıvan Dövlət Universitetinə yüksək özünüidarə statusu, muxtariyyət hüququ verilmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev müxtəlif vaxtlarda (1974, 1992 (iki dəfə) və 1999-cu illərdə) 4 dəfə Naxçıvan Dövlət Universitetində olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvan Dövlət Universitetinin Elektron kitabxanasının və Konservatoriyasının açılışında iştirak etmişdir.

Universitetdə 43 kafedra fəaliyyət göstərir. Hazırda Naxçıvan Dövlət Universitetində 528 nəfər professor-müəllim heyəti çalışır ki, bunlardan 1 nəfəri Akademik, 5 nəfəri Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 31 nəfəri elmlər doktoru, 24 nəfər professor, 181 nəfəri fəlsəfə doktorudur ki, onlardan 162 nəfəri dosentdir. 139 nəfər baş müəllim və müəllimdir.

Müəllimlər arasında xalq rəssamı, əməkdar elm xadimi, 10 nəfəri Azərbaycan Respublikasının əməkdar müəllimi, 3 nəfəri Azərbaycan Respublikasının əməkdar artisti, 4 nəfəri Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi, o cümlədən 32 nəfəri Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi, 5 nəfəri əməkdar artisti, 2 nəfəri əməkdar bədən tərbiyəsi və idman xadimi, 2 nəfəri əməkdar həkimi, 5 nəfər əməkdar mədəniyyət işçisi, əməkdar rəssamı, əməkdar incəsənət xadimi fəxri adlarına layiq görülənlər vardır.

Naxçıvan Dövlət Universitetində 10 fakültədə (Tarix-filologiya, Beynəlxalq münasibətlər və hüquq, İqtisadiyyat və idarəetmə, Xarici dillər, Fizika-riyaziyyat, Memarlıq və mühəndislik, Təbiətşünaslıq və kənd təsərrüfatı, Tibb, Pedaqoji, İncəsənət fakültəsi), bir Xarici tələbələrlə iş üzrə dekanlıq və Magistratura və doktorantura mərkəzi, nəzdində olan üç kollecdə (Naxçıvan Musiqi Kolleci, Naxçıvan Dövlət Texniki Kolleci, Naxçıvan Tibb Kolleci ) bakalavriat səviyyəsi üzrə 78 ixtisas, magistratura üzrə 75 ixtisaslaşma, doktoranturada 52 ixtisas və rezidentura üzrə 38 ixtisasda ümumilikdə 10000-ə yaxın, o cümlədən 7 ölkədən 1726 nəfərə yaxın xarici tələbə təhsil almaqdadır.

“Naxçıvan Musiqi Kollecinin Naxçıvan Dövlət Universitetinin tabeliyinə verilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 8 iyun 2021-ci il tarixli Sərəncamı təhsil sisteminin dünyaya inteqrasiyası istiqamətində atılan addımların məntiqi davamıdır. Universitetin tabeliyində olan Naxçıvan Musiqi Kollecində isə subbakalavriat səviyyəsi üzrə 13 ixtisasda 516 tələbə təhsil alır. Kollecdə 178 nəfər müəllim çalışır.

Naxçıvan Dövlət Universitetinin 108 hektarlıq ərazisində 13 tədris korpusu, Elektron Kitabxana, Konservatoriya, Sosial Xidmət Mərkəzi, Universitet Xəstəxanası, Olimpiya İdman Mərkəzi, 2 stadion və müasir tipli Tələbə evi yerləşir. Azərbaycan ali təhsil sistemində ilk dəfə olaraq tələbələr üçün 3 mərtəbəli Sosial Xidmət Mərkəzi, müasir tipli universitet Qonaq evi istifadəyə verilmişdir. Bununla yanaşı, Universitet xəstəxanasının fəaliyyəti genişləndirilmiş və ötən ilin may ayından etibarən xəstəxanada Cərrahiyyə, Laboratoriya, Stomatologiya, Ginekologiya və Göz şöbələri də fəaliyyətə başlamışdır.

Universitetdə ən yüksək kampus simsiz internet şəbəkəsindən istifadə olunur. Burada 3 internet mərkəzi, Media mərkəzi, Universitet televiziyası (NDU tv), “Nuhçıxan radiosu”, Nəşriyyat, “Elmi əsərlər” jurnalı, “Yeni fikir” qəzeti və bir neçə muzey fəaliyyət göstərir. Universitetin “Elmi əsərlər” jurnalı Ali Attestasiya Komissiyasının reyestrinə daxil edilmiş və beynəlxalq ISSN nömrəsi almışdır.

Naxçıvan Dövlət Universiteti Cənubi Koreyanın KOICA təşkilatı ilə birlikdə “Elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturun yaradılması” layihəsini həyata keçirmişdir. Elektron Universitetin fəaliyyətə başlaması Azərbaycan ali təhsil məkanında büdcəsinə və layihəsinin genişliyinə görə ən

irihəcmli və əhəmiyyətli layihələrdən biri kimi tarixə düşmüşdür. Elektron təhsil, Onlayn Sənəd dövriyyəsi, Akademik İdarəetmə və s. kimi təhsilin idarəedilməsi modellərini özündə birləşdirən Elektron Universitet nəinki təhsilin elektron vasitələrlə həyata keçirilməsini, eyni zamanda elektron imtahanları da əhatə edir. Ölkəmizin ali təhsil müəssisələri arasında ilk dəfə Naxçıvan Dövlət Universitetində Distant Təhsil Mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Dövlət Universitetində 176 minə yaxın kitab fondu olan kitabxanada “PROLİB” avtomatlaşdırılmış Kitabxana-İnformasiya İdarəetmə sistemi vasitəsilə bugünədək 5300 adda 50.000 sayda kitabın elektron kataloqu yazılmış, 6540 adda, 34804 sayda kitabın kataloqu hazırlanaraq oxucuların istifadəsinə verilmişdir.

Yeni nəsil gəncliyin hərtərəfli inkişafını təmin etmək üçün Naxçıvan Dövlət Universitetində yaradılmış Tələbə Həmkarlar İttifaqı Komitəsi, Tələbə Gənclər Təşkilatı, Tələbə Elmi Cəmiyyəti, Tələbə teatr və opera studiyaları, xor, vokal və rəqs qrupları, İdman klubu səmərəli fəaliyyət göstərir. 2021-ci ildə Naxçıvan Dövlət Universitetində Tələbə Simfonik Orkestri yaradılmışdır. Ali təhsil ocağının tələbə təşkilatları universitetdə tələbələrin yaradıcılıq axtarışlarının, bilik və bacarıqlarının, dünyagörüşünün, təşkilatçılıq qabiliyyətlərinin daha da inkişaf etdirmələrinə, asudə vaxtlarının səmərəli təşkilinə geniş imkan yaradır.

Naxçıvan Dövlət Universiteti Avrasiya Universitetləri Birliyinin, Avropa Rektorlar Klubunun, Asiya Universitetlər Assosiasiyasının, Qara Dəniz Hövzəsi Universitetlər Birliyinin, Avrasiya İpək yolu Universitet Rektorları Cəmiyyətinin və Qafqaz Universitetlər Birliyinin üzvüdür. Beynəlxalq təşkilatlarla əlaqələr Naxçıvan Dövlət Universitetində tədris prosesində və elmi-tədqiqat işlərinin təşkilində, habelə idarəetmədə dünya təcrübəsindən yaradıcı şəkildə faydalanmağa imkan yaradır. Son illər beynəlxalq əlaqələrin genişləndirilməsi sahəsində görülən tədbirlərin nəticəsidir ki, hazırda universitetin dünyanın 50-dən çox ölkəsinin 80-dən artıq ali təhsil ocağı ilə faydalı əməkdaşlıq əlaqələri vardır.  “Naxçıvan Dövlət Universitetində Texnologiyalar parkının yaradılması haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 14 dekabr 2020-ci il tarixli Sərəncamı bu baxımdan ali təhsil müəssisəsinin imkanlarını daha da genişləndirməklə yanaşı, beynəlxalq rəqabətqabiliyyətliliyin təmin olunması, innovativ layihələrin dəstəklənməsi və keyfiyyətli kadr hazırılığına son dərəcə böyük təsir imkanları yaradacaqdır. Texnopark vasitəsilə ortaq fəaliyyət imkanları əldə etmiş digər universitetlərin və onların pedaqoji kollektivi, peşəkar mütəxəssisləri ilə nəzəri araşdırmalarla yanaşı, təcrübi nəticələrin əldə olunmasında, bu fəaliyyətin iqtisadi, sosial, mədəni mahiyyətlə birlikdə, eyni zamanda, dünya elminə və təhsilinə inteqrasiyası təmin edilmişdir.

Ali təhsilli kadrların elmi-tədqiqat işlərinin yerinə yetirmə bacarığının formalaşması, müasir şəraitdə elmi-tədqiqat yönümlü yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasında mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə Beynəlxalq münasibətlər və hüquq fakültəsində “Diplomatiya Mərkəzi”

və “Kriminalistika” laboratoriyası, Pedaqoji fakültədə Diplomatiya Mərkəzi” və “Kriminalistika” laboratoriyası, Pedaqoji fakültədə “Texnologiya mərkəzi” və “Atıcılıq mərkəzi”, Memarlıq və mühəndislik fakültəsində “Robototexnika” laboratoriyası, STEAM mərkəzi, Tibb fakültəsində “Əczaçılıq Simulyasiya” kabinəsi və Sosial Xidmət Mərkəzində “Yaşıl Əczaxana”, Tarix-filologiya fakültəsində “Muzeyşünaslıq” kabinəsi, Təbiətşünaslıq və Kənd təsərrüfatı fakültəsində “Yer quruluşu və kadastr, “Coğrafiya” adlı yeni kabinə və laboratoriyalar yaradılmışdır. 2022-ci il tarixdə Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və Kənd təsərrüfatı fakültəsində Sitologiya, Histologiya, Embriologiya, Anatomiya kabinələrinin, fakültə kitabxanasının və həmin fakültənin Baytarlıq təbabəti kafedrasında “Patalogiya” kabinəsi və Mikrobiologiya və virusologiya laboratoriyasının açılışı olmuşdur.

2022-2023-cü tədris ilində Naxçıvan Dövlət Universiteti ilə Türkiyənin Çankırı Karatekin Universiteti arasında ikili diplom layihəsi üzrə tələbə qəbulu həyata keçirmişdir.

2023-cü ildə ali təhsil ocağının qazandığı uğurlar içərisində ən mühümü Naxçıvan Dövlət Universiteti ilə dünyanın İT sahəsi üzrə nəhəng şirkəti olan IBM arasında Əməkdaşlıq Memorandumunun imzalanmasıdır. Dünyadakı universitetlərlə davamlı əlaqələr qurmaq, IBM-in 170 ölkəni əhatə edən Qlobal Ekosistemi ilə uyğunlaşmaq məqsədilə bağlanılan müqaviləyə əsasən IBM şirkəti ilə birlikdə Naxçıvan Dövlət Universitetində Proqramlaşdırma Mühəndisliyi İnstitutu (Software Engineering Institute) yaradılacaq. Proqramlaşdırma Mühəndisliyi İnstitutu akademik və əməkdaşlıq maraqları ilkin olaraq Süni intellekt, Bulud texnologiyaları, Kiber təhlükəsizlik, Məlumatlar bazası, Dizayn düşüncəsi sahələrinə yönələcək.

IELTS Qeydiyyat və İmtahan Mərkəzinin uğurla fəaliyyəti ali təhsil ocağında ingilisdilli mühitə töhfə verən yeni bir mərkəzin SAT–ın yaradılmasına gətirib çıxardı. Universitetin beynəlxalq rəqabətliliyinin artırılması, ikili diplom proqramlarının həyata keçirilməsi, universitetin beynəlxalq əlaqələrinin inkişafı istiqamətində öz müsbət addımları ilə yadda qalmaqla bərabər bu gün yaradılan SAT İmtahan mərkəzi nəinki universitetdə eyni zamanda Naxçıvanda ingilisdilli mühitin inkişafına mühüm töhfələriylə yadda qalacaq.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Sərəncamını əsasən Naxçıvan Dövlət Universiteti ilə digər ölkələrin ali təhsil müəssisələri arasında əməkdaşlıqların gücləndirilməsi, birgə proqramların təşkil olunması, həmçinin ali təhsil müəssisələrində yeni məzmunlu proqramların (SABAH, ingilisdilli tibb fakültəsi, tibbi tədqiqat klinikası və s.) tətbiqi üzrə layihələrin həyata keçirilməsi məsələləri öz əksini tapıb. Universitetdə Tibbi kadrlara olan ehtiyacı nəzərə alaraq həmin ixtisas üzrə ingilisdilli ixtisasa qəbul həyata keçirilib.

# Əsas prioritetlər və fəaliyyət istiqamətləri

**Təhsil.** Təhsil sisteminin bütün pillələrində Bolonya prosesinin tələblərinə uyğun olaraq, təhsilin kredit sistemi ilə təşkili həyata keçirilir. Universitet fakültələrinin hər birində tədris prosesində yeni texnologiyalardan istifadəyə geniş şərait yaradılır. Bütün bunlar təlimin keyfiyyətinin yüksəldilməsinə, əyaniliyin möhkəmlənməsinə müsbət təsir göstərməkdədir. Tədris prosesində İKT-nin tətbiqi sahəsində tədbirlərin daha da genişləndirilməsi üçün Elektron universitet layihəsinin tətbiqi tədrisin inkişafı, eləcə də NDU-da tələbə və müəllimlərin peşəkarlığını artırmaq və dünya universitetləri ilə inteqrasiyanı sürətləndirmək üçün əlverişli vasitəyə çevrilmişdir.

**Tədqiqat.** Elmi tədqiqatlar kafedralar, tədqiqat mərkəzləri və labaratoriyalarda həyata keçirilir. Elmi tədqiqatların stimullaşdırılması məqsədilə Naxçıvan Dövlət Universitetində differensial əmək haqqı sistemi və nüfuzlu jurnallarda məqalə nəşrinə görə mükafatlandırma sistemi mövcutdur. Tədqiqat işlərinin səmərəliliyinin inkişaf etdirilməsi və onların sənayedə tətbiqinin təmin edilməsi məqsədilə müxtəlif ölkələrdən olan tədqiqatçılar dəvət edilir və universitetin sənaye təmsilçiləri ilə əlaqələri möhkəmləndirilir. Alimlərin “Web of Science”, “Scopus” və başqa nüfuzlu elmi bazalara daxil olan nəşrlərdə çap edilən əsərlərinin sayı artmaqdadır. Universitet tədqiqat potensialını artırmaq və tədqiqat universitetinə çevrilmək məqsədilə infrastrukturun yaxşılaşdırılmasına, nüfuzlu nəşrlərdə elmi əsərlərin nəşrinə, qrant layihələrinin həyata keçirilməsinə, magistratura və doktorantura təhsilinin inkişaf etdirilməsinə və əqli mülkiyyət hüquqlarının qorunmasına önəm verir.

**Beynəlmiləlləşmə.** Təcrübə mübadiləsini sürətləndirmək və tələbələrin beynəlxalq əmək bazarında konkurentliyini təmin etmək məqsədilə nüfuzlu xarici universitetlərlə əməkdaşlıq protokolları imzalanır və mobillik təmin edilir, elmi seminarlar, ortaq konfrans və simpoziumlar, xarici professorların iştirakı ilə təlimlər təşkil olunur. Universitetin təhsil proqramlarının beynəlxalq təhsil standartlarına cavab verməsini təmin etmək məqsədilə beynəlxalq akkreditasiya üçün ixtisasların hazırlanması işləri davam etdirilir. Bakalavr və magistr təhsil pillələrində əməkdaşlıq protokolları mövcud olan təhsil müəssisələri ilə ikili diplom proqramları tətbiq olunur. Beynəlxalq imtahanların əlçatanlığının təmin olunması üçün universitetdə IELTS və SAT qeydiyyat və imtahan mərkəzləri fəaliyyət göstərir. Naxçıvan Dövlət Universitetinin mövcud yüksək standartlara cavab verən maddi-texniki bazasını, peşəkar akademik kadr potensialını nəzərə alaraq əcnəbi tələbələrə bakalavr, magistr və doktorantura təhsil pillələrinin bütün ixtisasları üzrə təhsil təklif olunur. ATM-nin tanıdılması və əcnəbi tələbələrin cəlbi məqsədilə bir sıra beynəlxalq forum və təhsil sərgilərində iştirak olunur. ATM Times Higher Education Impact Ranking, Webometrics kimi reytinq sistemlərində iştirak edir, eləcə də, QS reytinq sistemində də iştirakın təmin olunması istiqamətində işlər davam edir.

**Resurslar.** Universitet əməkdaşlarının peşə bacarıqlarının təkmilləşdirilməsinə xüsusi əhəmiyyət verir və bu məqsədlə seminarlar və təlimlər təşkil edir. Eləcə də, universitetin akademik və administrativ heyətinin xarici tərəfdaş universitetlərdə mübadilə proqramlarında və müxtəlif təlimlərdə iştirakı təmin edilir. Universitetin zəngin informasiya resurslarına malik olan "www.ndu.edu.az" ünvanlı internet səhifəsi bütün proseslərin əlçatanlığı və şəffaflığının təmin edilməsində mühüm rol oynayır. Universitetin bütün binaları geniş zolaqlı internetlə təmin edilmişdir. Naxçıvan Dövlət Universitetinin "E-universitet" və "LMS" sistemləri universitetdə bütövlükdə tədris prosesini və sənəd dövriyyəsini 90% elektronlaşdırmağa imkan vermişdir. Universitetdə tələbə və müəllim heyətinin davamlı istifadə edə biləcəyi müasir kitabxana sistemi də fəaliyyət göstərir. Maliyyə resursları  dövlət sifarişli tələbələr üçün dövlət tərəfindən ödənilən təhsil xərcləri, ödənişli əsaslarla təhsil alan tələbələrin ödədiyi təhsil haqqları və qanunla nəzərdə tutulmuş digər gəlirlər əsasında formalaşır.

# MİSSİYAMIZ

Transformativ təhsil mühitində, dərin intizam biliyinə yönəlmiş missiyamız ali təhsildə şəffaflığın təmin edilməsi və yeni çağırışlara cavab verə bilməsi üçün tədqiqat və tədris prosesində tələbə və tədqiqatçılara fərdi yanaşmanın sərgilənməsi ilə yeniliklərə çevik uyğunlaşa bilən tədris və tədqiqat mühitinin formalaşdırılmasıdır.

# BAXIŞIMIZ

Naxçıvan Dövlət Universitetinin baxışıuniversiteti dünyanın qabaqcıl təhsil sistemlərinə inteqrasiya edərək Azərbaycan ali təhsil məkanında lider bir quruma çevirmək, tədqiqat potensialını artıraraq universitetin əməkbazarı və sənaye ilə əlaqələrini gücləndirmək, tədqiqatyönümlü tədris mədəniyyəti formalaşdıraraq tələbələr və əməkdaşlar arasında demokratik prinsipləri izləmək və vətəndaş məsuliyyətini inkişaf etdirməkdir.

# DƏYƏRLƏRİMİZ

Keyfiyyətlilik: Universitet bütün fəaliyyət istiqamətləri üzrə keyfiyyətin təmin edilməsinə səy göstərir.
Dayanıqlılıq: Universitet ekoloji tarazlığın qorunmasına önəm verir və dayanıqlı inkişafı dəstəkləyir.

Akademik azadlıq: Universitet akademik, administrativ və tələbə heyətini təlim, tədris, tədqiqat və sosial fəaliyyətlərdə qanunvericilik normaları çərçivəsində azadlığını təmin etməyə diqqət edir.

Sosial cavabdehlik və məsulluq: Universitet ictimaiyyətə qarşı məsuliyyətin və sosial layihələrdə tərəfdaşlığın  təşviqini dəstəkləyir.

Şəffaflıq: Universitet bütün fəaliyyət istiqamətləri üzrə işlərin icrasında şəffaflığı dəstəkləyir və universitetin maraqlı tərəfləri üçün əlçatanlığı təmin edir.

Etik qaydalar: Universitet qəbul edilmiş etik davranış qaydaları kodeksinə uyğun olaraq müəlliflik hüquqlarının qorunmasına önəm verir və fərqli düşüncələrə hörmətlə yanaşılmasını dəstəkləyir.

## GZİT ANALİZ

Universitetin güclü və zəif tərəfləri aydınlaşdırılmış, imkan və təhdid aspektləri qiymətləndirilmiş və məqsədlərimizə nail olmaq üçün strateji hədəflər müəyyənləşdirilmişdir. Universitetin güclü və zəif tərəfləri daxili proseslərin, resursların analizi, təşkilati strukturların müzakirəsi və ortaq qərarı ilə müəyyən edilmişdir. Analizin nəticələri universitetin inkişafını dəstəkləmək və strateji qərarlar almaq üçün ətraflı təsvir təmin edir. Analiz resursların optimal istifadə edilməsinə və strateji tərəfdaşlıq və işbirliyi imkanlarının müəyyənləşdirilməsinə kömək edir.

## GÜCLÜ TƏRƏFLƏRİMİZ

» Təhsilin üç səviyyəsi (bakalavriat, əsas (baza ali tibb təhsili), magistratura/rezidentura, doktorantura) və doqquz ixtisas qrupu üzrə kadr hazırlığının aparılması
» Tərkibində bir beynəlxalq məktəb, üç kollec və 12 fakültə ilə respublikada klassik kampus modelinə sahib yeganə universitet olması
» Kadr hazırlığı ilə məşğul olan elmi dərəcəli professor-müəllim heyətinin tələbə sayın nisbətdə təhsil standartlarına uyğun olması
» İxtisas hazırlığı üzrə güclü maddi-texniki bazanın və tədris auditoriyalarında yüksək İKT imkanlarının mövcudluğu
» Təhsil alan əcnəbi tələbələrin sayına görə ölkədə lider olması (Əcnəbi tələbə 25% təşkil edir)
» Elmin bütün sahələri üzrə regional, respublika və beynəlxalq səviyyəli simpozium, konfrans və konqreslərin təşkil edilməsi
» Təhsil və tədqiqatın keyfiyyətinin artırılması və beynəlxalq təcrübənin əlçatanlığı üçün əcnəbi professor və tədqiqatçıların dəvət edilməsi
» Dünyanın əlliyə yaxın ölkəsindən olan yüzdən çox ali təhsil müəssisəsi ilə güclü beynəlxalq əlaqələrin mövcud olması
» Tədqiqatın təşviqi üçün bal sistemi ilə akademik heyətin qiymətləndirilməsi və differensial əməkhaqqının tətbiq edilməsi
» LMS sistemindən və elektron jurnaldan istifadə etməklə təhsilin elektronlaşdırılması və şəffaflığının təmin edilməsi
» Elmin müxtəlif istiqamətləri üzrə dövri elmi nəşrlərin dərc edilməsi və elmi tədqiqatın təşviqi
» Geniş resurslara malik kitabxana imkanlarının mövcudluğu

## ZƏİF TƏRƏFLƏRİMİZ

» Yüksək indeksli elmi nəşrlərdə məqalə sayının azlığı
» Universitet üzrə patent sayının azlığı və elmi nəticələrin sənayedə zəif tədbiqi
» Tələbə və müəllim heyətinin mobillik proqramlarında zəif iştirakı. Say nisbətinin ortalamadan aşağı olması
» Tələbələr üçün dəstək xidmətlərinin sisitemli olmaması (mentorluq, karyera məsləhətləri, psixoloji dəstək kimi)

» Tələbələrin tələbə xidmətləri, administrasiya və təhsil prosesinə dair cavabdehliklərinin zəif olması
» Tədqiqat layihələri üçün maliyyə təminatı mexanizminin olmaması və eləcə də tədqiqat mərkəzlərinin azlığı, laboratoriya və kitabxana təchizatının zəifliyi nəticəsində tədqiqat işlərin effektiv və praktiki olmaması
» Tələbə/müəllim heyəti arasında xarici dil bacarıqlarının zəif olması

## İMKANLARIMIZ

» Universitet – sənaye işbirliyinin inkişafı və start-up, spin-off layihələrin icrası üçün ölkədə yeganə universitet texnoparkının qurulması
» Müxtəlif ölkələrdə və ya tərəfdaş universitetlərdə tədqiqat və təhsil mübadilə proqramları
» İdman infrastrukturları, kitabxana, kafeler, tələbə klubları və digər ictimai və mədəni imkanlar
» Tələbələr üçün müxtəlif dəstək xidmətləri (mentorluq, karyera məsləhətləri, psixoloji dəstək,inkluziv təhsil mərkəzi kimi) mexanizmlərin yaradılması
» Təhlükəsiz və tənzimlənmiş kampus ərazisi
» Tələbələr üçün maliyyə yardımı və təqaüd proqramları

## TƏHDİDLƏR

» Elmi dərəcəli kadrların cəlb olunması üçün rəqabətliliyin artması
» Elmi dərəcəli akademik heyətin yaş nisbəti arasında fərqin artması və gələcəkdə dərəcəli kadr sayında azalma
» Universitet büdcəsinin əsasən təhsil haqları hesabına formalaşması
» Əmək bazarı ilə əlaqə mexanizmasının effektiv olmaması və tələblərin davamlı dəyişməsi
» Tədqiqatçı professor/müəllim heyətinin sayının azlığı

## STRATEJİ MƏQSƏDLƏRİMİZ

**MƏQSƏD 1. Yüksək keyfiyyətli təlim və tədris prosesinin təşkili.**
Tələbələrin müstəqil fikir və bacarıqlarını inkişaf etdirməsi, praktiki bacarıqları gücləndirməsi, müasir tədris texnologiyalarının istifadəsi və tədris materiallarının güncəllənməsi yolu ilə effektiv təlim metodologiyalarını tətbiq edərək təlimin və tədrisin keyfiyyətini artırmağa nail olmağı hədəfləyirik.

Hədəf 1. Tələbə yönümlü təhsil yanaşmasını mənimsəyərək tələbələrin öyrənmə ehtiyaclarını analiz etmək və təhsildəki yeni trendləri müəllim heyətinin mənimsəməsi ilə auditoriyalarda tətbiqinə nail olmaq
1.1 Tələbə yönümlü təhsil yanaşması mexanizmasının bütün kafedralarda mənimsənilməsi üçün mütəmadi təlimlər təşkil etmək
1.2 Təhsildəki yeni trendlərin akademik heyətə çatdırılması üçün beş il boyunca davamlı təlimlər təşkil etmək və heyətin xarici tərəfdaş universitetlərdə mobilliyini təmin etmək
1.3 Tədris prosesini ESG standartlarının tələblərinə uyğunlaşdırılmasını təmi etmək
1.4 Tədris standartları və proqramları əmək bazarının tələblərinə uyğunlaşdırmaq
1.5 Təcrübələrin təşkilinin təkmilləşdirilməsi və tələbələrin xaricdə təcrübə keçmək imkanlarını artırmaq
1.6 Kredit sisteminin tələblərinə uyğun olaraq müəllimlərin tələbələr tərəfindən seçilmə imkanını təmin etmək
1.7 Tələbə könüllülük fəaliyyətlərini təkmilləşdirmək və tələbələri bu fəaliyyətlərə cəlb etmək

Hədəf 2. Yüksək ixtisaslı və beynəlxalq təcrübəli akademik və inzibati işçiləri universitetə cəlb etmək, akademik heyətin inkişafına dəstək vermək və beynəlxalq təcrübəni yaymaq
2.1 Hər il tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədi ilə əcnəbi professor/müəllim heyətini cəlb etmək. Universitetdə yeni tədris və tədqiqat metodlarının tələbə və müəllim heyətinə çatdırmaq
2.2 Naxçıvan Dövlət Universiteti nəzdində Proqram Mühəndisliyi İnstitutunu yaratmaq və təlim/tədqiqat fəaliyyətlərini icra etmək
2.3 İngilisdilli təhsili genişləndirmək və ingilis dilində tədris olunan proqramların keyfiyyətini artırmaq
2.4 IELTS və SAT kimi beynəlxalq imtahanların təşkilini və tələbələrin iştirakını təmin etmək
2.5 Hər il bir ixtisas proqramının beynəlxalq akreditasiya şirkətləri tərəfindən akreditasiyasını həyata keçirmək
2.6 Mentorluq təlimlərinin sayını artırmaq və mentor fəaliyyətlərini dəstəkləmək
2.7 Tələbələrin intellektual və yaradıcılıq potensialının inkişafı və ixtisaslar üzrə kompetensiyalara tam yiyələnməsi üçün SABAH qrupları açmaq

2.8 Tədris və tədqiqat prosesinə töhvə verməsi üçün dəvət edilmiş əcnəbi professorların rəhbərliyində universitetin magistr və doktorantlarının iştirakı ilə kiçik tədqiqat qrupları yaradaraq elmi tədqiqatlar həyata keçirməkHədəf
3. Universitetin reputasiyasını ölkə daxilində və beynəlxalq arenada artırmaq və yüksək bal toplamış abituriyentlərin cəlbinə nail olmaq. Yüksək təhsil nailiyyətlərinə malik əcnəbi vətəndaşların qəbulunu aparmaq.
3.1 Ölkə daxilində və xaricdə təşkil edilən təhsil sərgilərində iştirak edərək universitetin təbliğatı işini həyata keçirmək
3.2 Əcnəbi tələbələrin qəbul prosedurlarını və tələbəyə dəstək xidmətlərini təkmilləşdirmək
3.3. Hər il yerli və əcnəbi tələbə qəbul sayını artırmaq
3.4 Universitetdə İBM Təlim Mərkəzinin yaradılması və müəllim/tələbə heyətinin İBM tərəfindən təşkil edilən təlimlərdə iştirakını təmin etmək

MƏQSƏD 2. Universitetdə elmi tədqiqatın intensivləşdirilməsi, tədqiqat alətlərinin və infrastrukturunun inkişafı və elmi kadrların beynəlxalq səviyyədə tanınmasına, eləcə də elmi nəticələrin praktik tətbiqinə, bu sahədə rəqabət qabiliyyətinin artırılmasına nail olmaq.

Universitetin elmi-tədqiqat və elmi-istehsalat sahələrində inkişafı, bu istiqamətdə keyfiyyət siyasətinin yaradılması, rəqabətliliyin və nəticəyönümlülüyün artırılması məqsədini daşıyır. Universitetdə elmi-tədqiqat potensialını artıraraq onun müstəqil fikir formalaşdıran, innovativ tədqiqat layihələri üçün bir mərkəz olmasını hədəfləyirik.

Hədəf 1. Tədqiqat universitetinə çevrilmə sahəsində fəaliyyətlərin icrası
1.1 Keyfiyyətli tədqiqat parametrlərini müəyyənləşdirən təlimatlar hazırlamaq, təşviqat mexanizmlərini təkmilləşdirmək və təlimlər təşkil etmək
1.2 Elmi fəaliyyətin təşkili və idarə olunmasını mərkəzləşdirmək və səmərəliliyin artırılması məqsədilə strukturlararası əlaqələri təkmilləşdirmək
1.3 Tədqiqatdan yaranan biliyin, nəticənin qeydiyyatı və idarə edilməsi haqqında təlimat hazırlamaq, bütün strukturların bu təlimatlarla tanış olmasını təmin etmək
1.4 Tədqiqat nəticələrinin kommersiyalaşdırılması üçün dəstək mexanizmlərinin hazırlamaq
1.5 Universitetin kitabxana potensialını təkmilləşdirmək, elektronlaşdırılmasını və beynəlxalq kitabxana şəbəkələrinə çıxışları təmin etmək

Hədəf 2. Akademik heyətin tədqiqat bacarıqlarını təkmilləşdirmək və tədqiqat fəaliyyətlərinə dəstək vermək
2.1 Tədqiqatla məşğul olan akademik heyətin ehtiyaclarına uyğun davamlı, peşəkar təlimlər təşkil etmək
2.2 Tədqiqatçıların beynəlxalq elmi jurnallara əlçatanlığının təmin edilməsi üçün beynəlxalq elektron resurslara çıxış imkanlarını genişləndirimək

2.3 Scopus və Web of Science indeksli jurnallarda elmi məqalələrin dərc olunmasını təşviq etmək, tədqiqatçıların qlobal elmi məkana inteqrasiyanı sürətləndirmək, yüksək indeksli nəşrlərdə məqaləsi dərc olunan tədqiqatçıların mükafatlandırılması planını hazırlamaq
2.4 Elmi tədqiqat laboratoriyalarının işini təkmilləşdirmək, kadr potensialını və maddi-texniki bazanı gücləndirmək

MƏQSƏD 2. Universitetdə elmi tədqiqatın intensivləşdirilməsi, tədqiqat alətlərinin və infrastrukturunun inkişafı və elmi kadrların beynəlxalq səviyyədə tanınmasına, eləcə də elmi nəticələrin praktik tətbiqinə, bu sahədə rəqabət qabiliyyətinin artırılmasına nail olmaq.
Universitetin elmi-tədqiqat və elmi-istehsalat sahələrində inkişafı, bu istiqamətdə keyfiyyət siyasətinin yaradılması, rəqabətliliyin və nəticəyönümlülüyün artırılması məqsədini daşıyır. Universitetdə elmi-tədqiqat potensialını artıraraq onun müstəqil fikir formalaşdıran, innovativ tədqiqat layihələri üçün bir mərkəz olmasını hədəfləyirik.

Hədəf 1. Tədqiqat universitetinə çevrilmə sahəsində fəaliyyətlərin icrası
1.1 Keyfiyyətli tədqiqat parametrlərini müəyyənləşdirən təlimatlar hazırlamaq, təşviqat mexanizmlərini təkmilləşdirmək və təlimlər təşkil etmək
1.2 Elmi fəaliyyətin təşkili və idarə olunmasını mərkəzləşdirmək və səmərəliliyin artırılması məqsədilə strukturlararası əlaqələri təkmilləşdirmək
1.3 Tədqiqatdan yaranan biliyin, nəticənin qeydiyyatı və idarə edilməsi haqqında təlimat hazırlamaq, bütün strukturların bu təlimatlarla tanış olmasını təmin etmək
1.4 Tədqiqat nəticələrinin kommersiyalaşdırılması üçün dəstək mexanizmlərinin hazırlamaq
1.5 Universitetin kitabxana potensialını təkmilləşdirmək, elektronlaşdırılmasını və beynəlxalq kitabxana şəbəkələrinə çıxışları təmin etmək

Hədəf 2. Akademik heyətin tədqiqat bacarıqlarını təkmilləşdirmək və tədqiqat fəaliyyətlərinə dəstək vermək
2.1 Tədqiqatla məşğul olan akademik heyətin ehtiyaclarına uyğun davamlı, peşəkar təlimlər təşkil etmək
2.2 Tədqiqatçıların beynəlxalq elmi jurnallara əlçatanlığının təmin edilməsi üçün beynəlxalq elektron resurslara çıxış imkanlarını genişləndirimək
2.3 Scopus və Web of Science indeksli jurnallarda elmi məqalələrin dərc olunmasını təşviq etmək, tədqiqatçıların qlobal elmi məkana inteqrasiyanı sürətləndirmək, yüksək indeksli nəşrlərdə məqaləsi dərc olunan tədqiqatçıların mükafatlandırılması planını hazırlamaq
2.4 Elmi tədqiqat laboratoriyalarının işini təkmilləşdirmək, kadr potensialını və maddi-texniki bazanı gücləndirmək
2.5. Yerli və beynəlxalq birgə tədqiqat layihələrində iştirakı dəstəkləmək
2.6 Təcrübi tədqiqatların aparılması və alınmış nəticələrin tədris prosesində tətbiq edilməsinə dair tövsiyyələr hazırlamaq

**Hədəf 3. Universitetin elmi nəşrlərinin fəaliyyətini təkmilləşdirmək və nüfuzlu beynəlxalq elmi tədbirlər təşkil etmək.**
**3.1 Elmi jurnalların internet səhifəsini təkmilləşdirmək və dərc olunan məqalələrin hər birinə rəqəmsal identifikatorun (DOI) alınmasını təmin etmək**
**3.2 Jurnalların fəaliyyətinin müvafiq nüfuzlu beynəlxalq bazaların tələbləri əsasında qurmaq və elmi jurnalların indeksləşməsi sahəsində işlər aparmaq**
**3.3 Dünyanın qabaqcıl universitetlərinin nümayəndələrini dəvət etməklə beynəlxalq**
**səviyyəli elmi tədbirlər (konfrans, konqres, simpozium, forum) təşkil etmək**

**Hədəf 4. Universitetin tədqiqat və innovasiya imkanlarını Universitet-Sənaye münasibətlərinin inkişafı istiqamətində təkmilləşdirmək**

**4.1 Universitetin prioritet seçdiyi ixtisas sahələri üçün müvafiq müəssisə və şirkətlərlə**
**çoxşaxəli əməkdaşlıqlar qurmaq və bu əməkdaşlıqları inkişaf etdirmək**
**4.2 Universitet- Sənaye əlaqələrinin icrası mexanizmini və fəaliyyət planını hazırlamaq**
**4.3 Tələbə və müəllim heyətinin start-up və spin-off layihələr hazırlamasını təmin etmək**
**4.4 Layihələrin sənayeyə təqdimi və kommersiyalaşdırlıması üçün festival və yarışmalar kimi fərqli platformalar qurmaq və bu platformalara çıxışı təmin etmək**
**4.5 Sənaye müəssisələrini yeni qurulacaq Texnologiyalar Parkına cəlb edərək tədqiqat laboratoriyaları və mərkəzlərin açılmasını və fəaliyyətini təmin etmək**
**4.6 Tərəfdaş sənaye müəssissələrində tələbələ və müəllim heyəti üçün müxtəlif təcrübə və mentorluq proqramları vasitəsilə əlaqələri genişləndirmək**

**MƏQSƏD 3. Universitetin beynəlmiləlləşməsi işinin effektiv təşkili.**
**Müasir dünyada universitetlər üçün beynəlmiləlləşmə, təhsilin keyfiyyətini artırmaq, tələbə və müəllimlərin beynəlxalq bacarıqlarını gücləndirmək üçün ən vacib məqsədlərdən biridir. Beynəlmiləlləşmə təhsil sahəsində sürətli qloballaşmanın bir tələbidir. Universitet təhsil proqramları və tədqiqat sahələrini beynəlmiləlləşdirməklə, tələbələrin beynəlxalq sahədə nailiyyətlərini artırmağı hədəfləyir.**

**Hədəf 1. Beynəlmiləlləşmiş Tədris Proqramları: Tədris proqramlarını müasir texnologiyalar və beynəlxalq standartlara cavab verəcək şəkildə tənzimləmək**

**1.1 Universitetin müxtəlif fakültələrində tədris proqramları və ixtisasların beynəlxalq standartlara uyğunlaşdırılmasını təmin etmək**
**1.2 İxtisasların beynəlxalq akreditasiya şirkətləri tərəfindən akreditasiyasını təmin etmək**
**1.3 Universitetdə daxildə beynəlmiləlləşmə fəaliyyətlərini həyata keçirmək və bütün fakültələrin beynəlxalq təcrübəni mənimsəməsinə nail olmaq**

**1.4 Kreditlərin tanınması mexanizmini hazırlamaqla xaricdə mübadilə və təcrübələrdə iştirak prosedurlarını təkmilləşdirmək**

**Hədəf 2. Xarici universitet və təhsil təşkilatları ilə əməkdaşlıq: Müxtəlif ölkələrdə yerləşən təhsil müəssisələri ilə əməkdaşlıq edərək tələbə və müəllim mübadiləsinin artırılmasına nail olmaq**

**2.1 Mövcud əlaqələrin effektivliyini artırmaq və yeni əlaqələrin qurulmasını təmin etmək**
**2.2 Müxtəlif beynəlxalq proqramlar və ikili razılaşmalar əsasında tələbə və müəllim heyətinin mobilliyini təmin etmək**
**2.3 Beynəlxalq qrant proqramlarına layihələr təqdim etmək və universitetin beynəlxalq qrant layihələrdə tərəfdaş olaraq iştirakını təmin etmək**
**2.4 Spesifik sahələr müəyyən etməklə xarici tərəfdaşlarla əməkdaşlığın effektivliyini artırmaq**
**2.5 Tələbə və müəllim heyətinin beynəlxalq online təlimlərdə iştirakını təmin etmək və bacarıqlarının inkişafına nail olmaq**

**Hədəf 3. Beynəlxalq tədqiqat fəaliyyətləri və ikili diplom proqramlarının icrası, universitetin beynəlxalq reytinqlərdə yer almasını təmin etmək**

**3.1. Universitetə dəvət edilən əcnəbi professor/müəllim heyəti ilə birgə beynəlxalq tədqiqatlar aparmaq**
**3.2 Beynəlxalq tədqiqat layihələrinin hazırlanmasını və heyətin iştirakını təmin etmək**
**3.3 Tələbələrin beynəlxalq təhsil təcrübəsi əldə etməsi üçün müxtəlif ölkələrdən olan təhsil müəssisələri ilə tərəfdaşlıq edərək təcrübə proqramları təşkil etmək**
**3.4 Müxtəlif ölkələrlə bakalavr və magistr ixtisasları üzrə ikili diplom proqramları təşkil edərək tələbələrin dünya səviyyəsində tanınan diplomlar almasına kömək etmək**
**3.5 QS, THE və digər nifuzlu reytinq şirkətlərində universitetin yer tutması üçün zəruri fəaliyyətlərin icrasını təmin etmək**

**MƏQSƏD 4.Keyfiyyət təminatının təkmilləşdirilməsi**

**Daxili keyfiyyət təminatı sistemi təhsil prosesində istiqamətlər və standartları müəyyənləşdirmək, tələbə performansını qiymətləndirmək və tədris prosesini tənzimləmək imkanı yaradır. Xarici keyfiyyət təminatı sistemi isə universitetin təhsil proqramlarınıqiymətləndirən müstəqil təşkilatlar vasitəsilə universitetin beynəlxalq rəqabətliliyini artırmağa kömək edir. Hem daxili, hem də xarici keyfiyyət təminatı sistemləri, universitetin müstəqil inkişafını təmin edir, təkmilləşmə imkanları yaratmağa və təhsil keyfiyyətini artırmağa kömək edir.**

**Hədəf 1: Daxili və xarici keyfiyyət təminatı mexanizmlərinin qurulması və işinin təkmilləşdirilməsi**

**1.1 Universitetin keyfiyyət təminatına yönəlmiş siyasət və prosedurların formalaşdırılmasına, təhlillərin aparılmasına və icrasına, eləcə də, keyfiyyət mədəniyyətinin təmin olunmasına nail olmaq**
**1.2 Keyfiyyət təminatı siyasətini müəyyənləşdirmək, tədris və tədqiqat prosesinin gedişatına nəzarət etmək və təhlillər aparmaq**
**1.3 Akademik və inzibati struktur bölmələrinin öz strateji fəaliyyət planlarının hazırlamalarını təmin etmək və icrasını dəstəkləmək**
**1.4 Tədris prosesinin təşkili, tədqiqat və innovasiya mühiti ilə bağlı universitetin bütün maraqlı tərəfləri arasında məmnuniyyət sorğuları keçirmək, nəticələrini analiz etmək və tədbirlər paketi hazırlayırlayaraq icrasına nəzarət etmək**
**1.5 Monitorinq aparmaq və monitorinq nəticəsində hazırlanmış analitik təhlil hesabatlarını dərc etmək**
**1.6 Xarici keyfiyyət təminatı prosedurlarını müəyyən etmək və müxtəlif formatlarda keyfiyyətin xarici təminatı prosedurlarında universitetin iştirakının təmin etmək**

**MƏQSƏD 5 idarəetmə strukturunun inkişafı, informasiya mübadiləsinin səmərəliyinin artırılması, sosial layihələrin və infrastrukturun yaxşılaşdırılması.**

**İdarəetmə strukturunun inkişafı təhsil prosesini daha sistematik və effektiv həyata keçirməyə kömək edir. İnformasiya mübadiləsinin səmərəliyini artırır. Sosial layihələrin inkişafı, tələbələrə sosial məsuliyyət, liderlik bacarığı və ictimai xidmət mədəniyyətinin təşkili kimi əlavə bacarıqlar qazandırmağa kömək edir. İnfrastrukturun təkmilləşdirilməsi ilə akademik, administrativ və tələbə heyətinin daha rahat və effektiv fəaliyyətinə kömək edir, bu da universitetin ümumi effektivliyini artıraraq təhsilin keyfiyyətini yüksəldir**

**Hədəf 1: İdarəetmə və infrastruktur təkmilləşdirilməsi, dayanıqlılığın təminatı**

**1.1 İdarəetmə strukturunun daha da effektiv işləməsi üçün strateji planlamanı tətbiq etmək və əsas prioritetləri müəyyənləşdirmək**
**1.2 Səmərəli informasiya mübadiləsini təmin etmək və elektron təhsil platformaları ilə təhsil prosesini idarə etmək, virtual təhsil platformalarını təkmilləşdirmək və informasiya təhlükəsizliyini təmin etmək**
**1.3 Universitetin infrastrukturunu, laboratoriya, təhsil təminatı və təhsil texnologiyalarını təkmilləşdirmək1.4 Universitetin dayanıqlı inkişafını təmin etmək, kampusda inkluzivliyi dəstəkləmək və tələbələrin sosial mühiti üçün layihələr hazırlayaraq daha keyfiyyətli təhsil mühitini formalaşdırmaq**
**1.5 Universitet tələbələrinin davamlı inkişafına, nəticəyönümlüyünə hədəflənmiş sosial layihələri geniş spektrdə reallaşdırmaq**
**1.6 Obyektivliyi və aşkarlığı təmin etmək, ictimaiyyətlə ünsiyyəti gücləndirmək məqsədilə İctimai Şuranın fəaliyyətini gücləndirmək**

**1.7 Universitet tabeliyində olan üç kollec və bir beynəlxalq məktəbin fəaliyyətinin effektivliyini artırmaq, təlim və tədris prosesinin keyfiyyətini təkmilləşdirmək**
**1.8 İnsan resursları şöbəsini yaratmaq və işini təkmilləşdirmək, universitetin insan kapitalı siyasətini formalaşdırmaq**
**1.9 Administrativ heyəti peşəkarlığın artırılması və yeni təcrübələrin mənimsənilməsi üçün təlimlərə cəlb etmək**

**MƏQSƏD 6. Strateji inkişaf planında nəzərdə tutulmuş fəaliyyətlərin icrası üçün maliyyə dayanıqlığını təmin etmək**

**Hədəf 1: Maliyyə resurslarının səmərəliliyini və davamlılığını təmin etmək**
**1.1 Maliyyə daxilolmalarının şaxələndirməsi və çeşidliliyinin artırılmasına nail olmaq**
**1.2 Qanunvericiliklə nəzərdə tutulmuş qaydada müxtəlif əlavə xidmətlər göstərməklə maliyyə axınına nail olmaq**
**1.3 Müxtəlif rezident və qeyri-rezident şirkətlərlə müqavilələr bağlayaraq tədqiqat nəticələrindən, istehsal olunan prototiplərdən və patentlərdən əlavə gəlirlər təmin etmək**
**1.4 Texnologiyalar parkının regional əhəmiyyətini və reputasiyasını yüksəldərək orada yerləşəcək şirkətlərdən icarə və ya digər formalarda vəsait daxil olmasına nail olmaq.**

**1.5 SİP-dən irəli gələn fəaliyyətlərin icrası üçün maliyyə resurslarının səmərəli istifadəsini təmin etmək və bu prosesə nəzarət etmək**

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ
1967
NAKHCHIVAN STATE UNIVERSITY

(+99436) 544-08-61
r.jafarli@ndu.edu.az
www.ndu.edu.az